**MƏTBUAT ÜÇÜN MƏLUMAT**

ATƏT və Azərbaycan Gənc Hüquqşünaslar Birliyi Korrupsiyaya Qarşı Mübarizəyə Həsr Olunmuş İlk Dəyirmi Masanı Keçirdi.

20 Oktyabr saat 09.00-dan 13.00-a dək «Hyatt Regency» Oteli, Quba Ball Room Zalında ATƏT-in Bakı Bölməsi və Azərbaycan Gənc Hüquqşünaslar Birliyinin «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun və Dövlət Proqramının Tətbiqi Perspektivləri adlı dəyirmi masa keçirdi. Dəyirmi masada açılış nitqi ilə çıxış edən Azərbaycan Gənc Hüquqşünaslar Birliyinin (AGHB) sədri və həyata keçirilən layihənin rəhbəri ***Nadir Adilov*** qeyd etdi ki, AGHB tərəfindən həyata keçirilən «Korrupsiyaya qarşı mübarizə» layihəsi ATƏT-in dəstəyi ilə baş tutub. ***N.Adilovun*** sözlərinə görə bir il müddətində davam edəcək layihə çərçivəsində ayda bir dəfə olmaq şərti ilə, il boyu 12 dəyirmi masanın keçirilməsi nəzərdə tutulur. Dəyirmi masalarda məruzəçi qismində iştirak edəcək şəxslərin siyahısı da artıq müəyyən olunub. Bundan əlavə layihə çərçivəsində TV-lərin birində iki dəfə Tok Şou, debatların keçirilməsi nəzərdə tutulmuşdur. Bundan əlavə artıq bu sahədə İnternet səhifə öz işinə başlamışdır ki, www.anticorruption.az səhifəsidir. Qeyd olunan İnternet səhifəsi Dəyirmi massa iştirakçılarına təqdim olundu və səhifə barədə onlara ətraflı məlumat verildi. Ümumiyyətlə isə Azərbaycanda korrupsiya ilə mübarizənin maariflənmə yolu ilə aparılmasının vacibliyini qeyd edən natiq bu məqsədlə də layihə çərçivəsində qeyd olunan qanunun analizinin və beynəlxalq sənədlərlə müqayisəli təhlillərin aparılacağını vurğuladı. O, qeyd etdi ki, əhalinin maarifləndirilməsi sahəsində müxtəlif çap məhsullarından istifadə olunacaqdır ki, bu çap məhsulları əhalidə antikorrupsiya meyillərini gücləndirsin.

İkinci çıxış edən ATƏT-in Azərbaycan Respublikasındakı səfiri ***Maurisio Pavesi*** Azərbaycan Respublikasında Korrupsiyaya qarşı mübarizə haqqında qanunun və dövlət proqramının qəbul olunmasının əhəmiyyətli olmasını vurğuladı.O, bu sahədə Azərbaycanın qoşulmuş olduğu beynəlxalq konvensiyaların da olmasını vurğulayaraq, bu addımın da çox vacib əhəmiyyət daşıdığını vurğuladı. ***Səfir*** qeyd olunan layihənin Azərbaycan Gənc Hüquqşünaslar Birliyi tərəfindən yüksək

səviyyədə həyata keçirildiyini vurğulayaraq bu günkü dəyirmi masanın işində bütün maraqlı tərəflərin iştirak etməsindən məmnun qaldığını qeyd etdi. Onun sözlərinə görə tədbirdə iştirak edən bütün tərəflər bu gün antikorrupsiya sahəsində aparılacaq işlərə bir daha öz töhfələrini vermiş oldular.

Üçüncü, açılış nitqi ilə çıxış edən Avropa Şurası Baş Katibinin Azərbaycan Respublikasındakı xüsusi nümayndəsi ***Mats Lindberq*** də Korrupsiyaya qarşı mübarizə sahəsində qəbul olunmuş sənədlərin yüksək əhəmiyyət daşıdığını vurğuladı. O, ondan əvvəl çıxış edən hər iki natiqin fikirlərinə qoşulduğunu vurğulamaqla bərabər bu sahədə xeyli işlərin görülməli olduğunu qeyd etdi. ***Mats Lindberq*** Avropa Şurasının bu məsələdə həssas olmasını önə çəkməklə bərabər aparılacaq işləri diqqət mərkəzində saxlayacaqlarını qeyd etdi.

Daha sonra isə ilk məruzə: «Korrupsiyaya Qarşı Mübarizə Haqqında Azərbaycan Respublikasının Qanununun Tətbiqi Perspektivləri» adlı məruzə ilə Millət Vəkili, Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Daimi Komissiyasının Sədri ***Əli Hüseynov*** çıxış etdi. O, Korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının qəbul etdiyi bütün sənədləri Azərbaycanın siyasi iradə nümayiş etdirməsi kimi vurğuladı və qeyd etdi ki, artıq Azərbaycan bu sahədə aktiv fəaliyyətə başlayıb.

İkinci məruzəçi «Korrupsiyaya Qarşı Mübarizə üzrə Dövlət Proqramının Perspektivləri və bu Sahədə Aparılacaq İslahatlar» adlı məruzə ilə çıxış edən Məruzəçi: Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı, Hüquq Mühafizə Orqanları ilə İş Şöbəsinin böyük məsləhətçisi ***İnam Kərimov*** da qeyd olunan məsələnin aktuallığını vurğulamaqla bərabər ***Əli Hüseynovun*** məruzəsi ilə razı olduğunu nəzərə çatdıraraq qeyd etdi ki, onun təmsil etdiyi şöbənin korrupsiya ilə mübarizə sahəsində mühüm addımlar atdığını vurğulayaraq bu sahədə qəbul olunmuş və hazırlanmış sənədlərin, dövlətin siyasi iradəsinin olmasını önə çəkdi.

***Daha sonra qeyd olunan mövzular ətrafında müzakirələr başlandı.*** Müzakirələrdə çıxış edən Millət Vəkili, Konstitusiya Fondunun Prezidenti ***Əliməmməd Nuriyev***, Millət Vəkili ***Qüdrət Həsənquliyev***, Millət Vəkili ***Mais Səfərli***, Əmək Hüquqlarının Müdafiəsi ***Liqasının Sədri Sahib Məmmədov***, «Təhsildə Rüşvətə Yox De» təşəbbüs qrupunun üzvü ***Elba Qurbanov***,

Şəffaflıq Azərbaycan təşkilatının icraçı direktoru ***Rəna Səfərəliyeva***, Milli Demokratiya Fondunun Prezidenti ***Ülvü Həkimov***, Antikorrrupsiya Mərkəzinin Direktoru ***Şəmsəddin Əliyev***, Gənclər Təşkilatları Milli Şurasının nümayəndəsi ***Orxan Mehdiyev***, Korrupsiya Fondunun Prezidenti ***Vasif Mövsümov***, Azərbaycan Problemlərini Araşdırma Birliyinin sədri ***Nəzirməmməd Qaramanlı***, Azərbaycan Sahibkarlar Konfederasiyasının Prezidenti professor ***Ələkbər Məmmədov***, Zorakılıq əleyhinə Hüquq Müdafiə Təşkilatının ***Sədri Fuad Həsənov***, çıxış edərək korrupsiyanın cəmiyyətə vurduğu zərbənin çox ağır olduğunu qeyd etdilər. Çıxışçılar korrupsiya sahəsində qanunun və dövlət proqramının qəbul olunmasını mütərəqqi hal hesab etməklə bərabər bu sahədə islahatların dayanmadan aparılmasının vacibliyini vurğuladılar. Çıxışçılar həmçinin qanun və dövlət proqrammı ilə əlaqədar öz irad və təkliflərini də bildirdilər.

Tədbirin sonunda məruzəçilər Millət Vəkili ***Əli Hüseynov***, Prezidentin İcra Aparatının Hüquq Mühafizə Orqanları ilə İş Şöbəsinin böyük məsləhətçisi ***İnam Kərimov,*** Azərbaycan Respublikası Baş Prokurorunun Böyük köməkçisi ***Kamran Əliyev*** çıxışçıların qaldırdığı məsələlərə, irad və təkliflərə öz münasibətlərini bildirdilər. Onlar birdaha qeyd etdilər ki, Korrupsiya sahəsində qeyd olunan qanunun, dövlət proqramının və digər normativ hüquqi aktların qəbul olunması dövlətin siyasi iradəsinin bariz nümunəsidir.

Tədbirin sonunda qeyd olunan mövzu ilə əlaqədar diskusiyaların və debatların keçirilməsini müsbət hal sayan Millət Vəkili, Milli Məclisin Avropa Şurası Parlament Assambleyasındakı Nümaynədə Heyətinin üzvü ***Gültəkin Hacıyeva*** qeyd olunan qanunun və dövlət proqramının Avropa Şurası qarşısında götürülmüş öhdəliklərdən biri olduğununu qeyd etdi və bu sahədə aparılmış işlərin bundan sonra da Avropa Şurası ilə əməkdaşlıq və qarşılıqlı anlaşma şəraitində aparılacağını vurğuladı. Avropa Şurası Baş katibinin Azərbaycan Respublikasındakı xüsusi nümayəndəsi ***Mats Lindberq*** dəyirmi masanın işini yüksək qiymətləndirdi və bu sahədə bundan sonra da Avropa Şurasının mühüm işlər aparacağını önə çəkdi.

Tədbir iştirakçılarına xüsusi minnətdarlığını bildirən Azərbaycan Gənc Hüquqşünaslar Birliyinin sədri, həyata keçirilən layihənin rəhbəri ***Nadir Adilov*** tədbir iştirakçılarının Korrupsiyaya

qarşı mübarizə cəhdlərini yüksək qiymətləndirdiyini vurğuladı və bundan sonra bu sahədə keçiriləcək silsilə dəyirmi masaların işində iştirak etməyə dəvət etdi.

Dəyirmi masada hökumət nümayəndələri, Millət Vəkilləri, Beynəlxalq Təşkilatların Azərbaycandakı nümayəndələri, səfirlər, KİV, QHT nümayəndələri və sairə şəxslər iştirak etmişdir. Dəyirmi masa qarşılıqlı anlaşma və dialoq şəklində öz işini yüksək formada başa vurmuşdur.

Ümumilikdə Dəyirmi masanın işində ***133*** nəfər iştirak etmişdir.

Gənc Hüquqşünaslar Birliyinin Mətbuat Xidməti